# VII. BEYNƏLXALQ PROBLEMLƏR - GEOPOLİTİKA MƏSƏLƏLƏRİ

# 1.0d içindən keçən yol

***Azərbaycan jurnalistikasının tanınmış simalarından biri, özünəməxsusluğu ilə fərqlənən teleaparıcı və şərhçi, siyasi əqidəsindən asılı olmayaraq, qəbul edilən nüfuzlu bir ziyalıdır. ...O, prinsipial olduğu qədər də, mübahisəni sevməyən, qarşı tərəfi dinləməyi bacaran, bu fikirlərlə barışmasa belə, obyektiv ola bilən bir insandır. Görünür, elə buna görədir ki, Qulu Məhərrəmli bu gün hər qarışının cəbhələrə bölündüyü bir cəmiyyətdə çoxları tərəfindən qəbul olunur və sevilir.***

***Gültəkin KNYAZQIZI***

Bütün dünyada beynəlxalq münasibətlər, demək olar ki, başdan-başa maraqlar üzərində qurulur. Bütün yaxınlaşmaların, yaxud, əksinə, uzaqlaşmaların, eləcə də qarşılaşmaların, toqquşmaların, sülh razılığına gəlmələrin hamısının əsasında maraqlar, mənafelər əsas amil olaraq özünü diktə edir.

Maraqlar kəskin şəkildə toqquşanda tərəflər həyat uğrunda mübarizə instiktinin təsiri ilə özünə tərəfdar axtarır. Maraqları uyğun gələn güclər cəbhələşmədə öz yerini tutur. Bu halda hansı dövlətin, hansı maraq əsasında prosesə qoşulduğunu qabaqcadan asanlıqla təyin etmək mümkün olmasa da, hadisənin gedişatını ardıcıl izləyəndə niyyətlər üzə çıxır, istəklər görünür.

Qulu Məhərrəmli beynəlxalq münasibətləri ardıcıl izlədiyinə görə və əlbəttə, dünya ökələrinin tarixini və müasir həyatını yaxşı bildiyinə görə maraqlı politoloji çıxışları ilə həmişə diqqəti cəlb edib. Onun prosesləri dəqiq izlədiyinə görə hadisələrin axarını, istiqamətini, ən başlıcası, ortaya çıxacaq nəticələri bir çox hallarda dəqiq görmək bacarığı var. Elə bu səbəbdən də onun politoloji nitqləri və yazıları həyatdan baş çıxarmaq istəyən, dünyada baş verənlərin nəylə nəticələnəcəyini bilmək istəyən oxuculara maraqlı olub. *"Gələcəyə ön söz"* kitabına professor Qulu Məhərrəmli bəsirət gözü açıq olan müəllif kimi, hazırlıqlı politoloq səriştəsi ilə qələmə aldığı bir çox yazılarını daxil edib.

Bəzən bizə elə gəlir ki, beynəlxalq münasibətlərdən bəhs edən materiallar müəyyən dövrdə maraqlı olur. Ancaq zaman göstərir ki, beynəlxalq münasibətləri, geopolitik məsələləri şərh edən materiallar artıq keçmişdə qalan tarixi öyrənmək üçün çox dəyərli mənbələrdir. Yeni nəsil diplomatlar, beynəlxalq münasibətlər üzrə gənc mütəxəssislər belə mənbələri öyrənməklə müşahidə imkanlarını daha da itiləyir, gələcək haqqında mülahizələrini dəqiqləşdirmək imkanı qazanırlar. Beləliklə, Qulu Məhərrəmlinin beynəlxalq münasibətlər, geopolitik məsələlər ilə bağlı haqqında bəhs etdiyimiz kitabda verilmiş yazılarına diqqət edək: *"İranı Azərbaycana necə birləşdirməli?"*, *"Azərbaycan sendviçlə dürmək arasında"*, *"Lermontovun ruhu dolaşan dağlarda"*, *"Əsədin taxtı, müdaxilə vaxtı"*, *"Moskvanın payız sınağı"*, *"Putinin pulları, nəfsinin qulları"*, *"Xaricdən təhlükə uydurmaları"*, *"Gürcüstan natürmortu"*, *"Türkiyə üzərində dolaşan kabus"*, *"Rusiyadan necə qorunmalı?"*, *"ABŞ üçün hansı ölkə təhlükəlidir?"*. *"Gələcəyə ön söz"* kitabına daxil edilmiş 12 məqalənin hər birində həm yazıldığı dövrün mahiyyəti, məzmunu görünür, həm də aktuallığı ilə indiki zamanın müəyyən mənada ürək çırpıntılarını da hiss etmək mümkün olur.

*"İranı Azərbaycana necə birləşdirməli?"* (06.04.2013) adlı məqalə həm Azərbaycanın tarixi taleyi ilə bağlı bəzi məqamlara işıq salır, həm də neçə il bundan əvvəl yazılmasına baxmayaraq, günümüzün reallıqlarına da diqqəti cəlb etmək gücünü qoruyub saxlayır.

İran məsələsi tarixin dərin qatlarından üzü bəri Azərbaycan üçün heç vaxt yaxşı nə isə vəd etməyib. Hətta 19-cu əsrin əvvəllərində Azərbaycan bölünərək iki imperiyanın tərkibinə qatıldı. İranın ərazisi kimi tanınan tərəf daha artıq zillət və daha betər faicə ilə üzləşməli oldu. Dini, əxlaqi, mənəvi zorakılıqlar 200 ildir ki, cənubi Azərbaycan üzərində davam etməkdədir. Ən başlıcası, İranın Azərbaycana qarşı yeritdiyi və heç nə ilə bəraət qazandırmağın mümkün olmadığı dil siyasətidir. Milyonlarla Azərbaycan türkü məktəb, oxumaq, yazmaq, öz dilində özünü ifadə etmək imkanlarından məhrumdur. Və ən pisi də odur ki, İran təkcə Azərbaycanın cənubunu pəncəsinin altında əzməklə kifayətlənmir, fanatizm və xurafat inqilabını şimali Azərbaycan ərazisinə ixrac etmək niyyətindən əl çəkmir. Bütün bunları Qulu Məhərrəmli də görür. Azərbaycanın içərisinə yeridilən və Azərbaycan mənafeyinə az qala açıq-aşkar xəyanət edən din təəssübkeşliyi adı altında gizlənməklə fars şovinizminin təmsilçisi olan qüvvələrin hərəkətini müşahidə edir və prosesin güc mənbələrini göstərməklə cəmiyyəti ayıq salmağa çalışır. O, İranla bağlı məqaləsinin ikinci başlığında dəqiq və aydın şəkildə belə yazır: *"Uzun tarixçəsi olan bir sərsəmlik haqqında"*. Elə təkcə bu yarımbaşlıq elementi bəs edir ki, müəllifin mövqeyini oxucu qabaqcadan aydın başa düşsün. Təcrübəli poltioloq kimi Qulu Məhərrəmli yazı boyu məntiqini həmin ifşaedici tezisi əsaslandırmağa yönəldir və ən başlıcası, oxucusu ilə açıq danışır: *"İran Azərbaycan üçün həmişə gözlənilməz təxribatlar mənbəyidir, son illərdə Tehran bizlər üçün arzuolunmaz davranışlar nümayiş etdirir. Həm də bunun üçün çox bəsit, amma emosional formalardan istifadə edərək Bakıdakı "görkəmli siyasətçiləri" asanlıqla tora sala bilir. Bu həftə bəzi media qurumlarında hansısa İran qəzetinin çaldığı köhnə bayatıya cavab olaraq səslənən "İranı Azərbaycana birləşdirək" çağırışları da onu göstərdi ki, biz tələyə qoyulmuş pendirə doğru qaçmağa çox tələsirik"*. Bundan sonra şahidi olduğu mötəbər məclisin iştirakçısı kimi mötəbər qonaqların məsələyə aydın münasibətini bilmək üçün suallar verir. Üçlük arasında (Namiq Abbasov, Rafael Hüseynov və Qulu Məhərrəmli) olan söhbətin məzmunundan belə başa düşmək olur ki, dövlətin ən mötəbər dairələrində İranın mövqeyi dəqiq izlənilir. Sadəcə İrana qarşı münasibətdə həssaslığı qorumağın vacibliyi hər vaxt diqqətdə saxlanılır.

Eynilə Qulu Məhərrəmlinin təhlilə çəkdiyi və müəyyən mülahizələrlə diqqətimizə çatdırmaq istədiyi məqamların bu gündə şahidiyik. Ən əsası da odur ki, indiyəcən İran hətta sadəlövhcəsinə olsa belə, Azərbaycana qarşı münasibətini gizləməyə çalışır, xəyanətkar əməllərini gizlində davam etdirirdi. Amma indi ən mötəbər rəsmi dairələr səviyyəsində açıq bildirirlər. *"Biz Ermənistanla bir millət iki dövlətik"* - hər ikisinin zərərli ideologiyası, qəsbkarlıq niyyətləri, qonşuya qarşı xəyanətkar mövqeləri həmin bədnam tezisdə öz əksini tapıb. Məhz elə buna görə mən təkidlə deyirəm ki, Qulu Məhərrəmlinin beynəlxalq münasibətlərlə bağlı yazılarının - mülahizələrinin təkcə tarixi əhəmiyyəti yoxdur, irəli sürülən iddialar bu gün də aktualdır.

*"Azərbaycan sendviçlə dürmək arasında"* (04.05.2013) məqaləsinə ardıcıl olaraq bir neçə müəllifin fikirlərini epiqraf gətirir. Oxucu marağı naminə biz də həmin epiqrafları təkrar edək:

*"Azərbaycanı Cənubdan və Şimaldan sendviç kimi əzirlər..." (Səməd Seyidov), "Bu siyasət davam etsə, onları iki yox, dörd tərəfdən sıxacaqlar" (Vəfa Quluzadə), "Hər tərəfdən sıxılan sendviç olmur, bu, artıq dürtmək olur"* (Eldar Namazov). Əslinə qalsa, üç tanınmış beynəlxalq münasibətlər araşdırıcısının bir-birindən fərqlənən mövqelərini bildirən bu tezislər həm də Qulu Məhərrəmlinin özünün ideyasını üzə çıxarır. Bu yazıda da Qulu Məhərrəmli Rusiya və İran maraqları arasında vurnuxan Azərbaycanın taleyi ilə bağlı narahatlığını ifadə edir. Çünki Ermənistan Azərbaycana qarşı diş qıcayan qüvvələr üçün yenə də alət olmaqda davam edir. Belə vəziyyətdə bizim diplomatlar, müəyyən səlahiyyət sahibi olan məmurlar son dərəcə ehtiyatlı olmalıdır. Biri hansısa bir xarici ölkədə müəyyən mövqe ifadə edirsə, başqa xarici ölkədə digərinin mövqeyi ilə bu üst-üstə düşməlidir. Qulu Məhərrəmli maraqlı fakt gətirir: *"Azərbaycan neçə illərdir ki, məhz nefti və tarazlaşdırılmış siyasət yeritməsi sayəsində bəzi uğurlara nail olub. Lakin son iki ildə bu siyasətin ölkəmiz üçün təhlükə doğuran iri çatlar verməsi göz qabağındadır. Qərblə münasibətlərin sərtləşməsi, Rusiyadan əsən soyuq küləklər, İranın anlaşılmaz və kobud davranışları, Türkiyədən ara-sıra eşidilən incik notlar xeyli düşündürücüdür. Bu həftə xarici işlər naziri E.Məmmədyarovun İsrailə səfəri və orada Azərbaycanın Qərb dəyərlərinə sədaqəti, demokratiyaya can atması barədə bəyanatları ilə ölkəmizin baş administratoru R.Mehdiyevin İran səfərində "bədniyyətli" Qərbi yıxıb-sürüməsi arasında aşkar ziddiyyətlərin ortaya çıxmasını da bu təhlükə simptomları siyahısına yazmaq olar"*. Əlbəttə, bundan sonra Qulu Məhərrəmli Avropa birliyinin, NATO-nun, Rusiya ilə bağlı beynəlxalq təşkilatların, Azərbaycana və ümumən Şərqə münasibətlərini açıqlayır. Və dünyada gedən prosesləri bilyard masası üzərindəki döyüşlə müqayisə edir. Və nə qədər acınacaqlı olsa da, şarlara özümüzün təsir etmək imkanımızın olmadığını da dilə gətirir. Əlbəttə, bu təsiri o çox arzulayır. Nəhayət, 44 günlük müharibə göstərdi ki, siyasi iradə və qətiyyət, güc, baş verən proseslərə ağıllı münasibət bizim də şarlara təsir etmək imkanımız olduğunu üzə çıxardı.

Qulu Məhərrəmli bütün yazılarında heç vaxt ümidsizliyə qapılmır. Gələcəyə ümidlə baxır. Fikir və düşüncələrini nikbin sonluqla bitirməyə çalışır. *"Lermontovun ruhu dolaşan dağlarda"* (31.08.2013) xatirə ovqatlı publisistik qeydlərində bu nikbin notları görmək heç də çətin deyil. Müəllifin müşahidə etdiyi hadisə Rusiyanın Stavropol diyarının Mineral sular şəhərində baş verib. Müəllif göstərir ki, bu şəhərdə müxtəlif millətlərin nümayəndələri yaşasa da, ən çox ermənilər gözə dəyir. Taksi sürücüsü, səhiyyə sahəsinin mütəxəssisi, polis orqanlarında çalışanlar, hətta şəhərin idarəetməsində olanlar arasında ermənilər az deyil. Az da olsa azərbaycanlılar da var. Və şəhərdə qeyri-azərbaycanlı olsa da, müsəlmanlar da tez-tez diqqəti cəlb edir. Ancaq necə ola bilir ki, ermənilər bu şəhərdə özlərini elə şəhərin sahibi kimi aparırlar. Bu vəziyyət müəllifdə təəssüf doğurur. Ancaq tezliklə müəllif Beşdağ şəhəri haqqında da məlumat verir və burada Lermontovu xatırlayır: *"Çox adam Pyatiqorsku böyük şair Y.Lermontovun şəhəri hesab edir, çünki rus poeziyasının parlaq günəşi məhz bu şəhərdə qürub edib. "Puşkinə atılmış güllə səsinə oyanan" dahi (V.Belinski) rus şairi Yuri Lermontov kəskin şeirləri ilə çarın qəzəbinə tuş gələrək paytaxtdan Şimali Qafqaza sürgün olunub. Bir müddət burada zabit kimi qulluq edib və 1741-ci ilin iyulunda Pyatiqorskdakı məşhur Maşuk dağının ətəyində dueldə öldürülüb. İndi həmin duel yerində böyük şairin şərəfinə hüznlü bir abidə ucalır. Bura şəhər sakinlərinin və qonaqların ən çox baş çəkdikləri yerdir. Yerli sakinlər Lermontovun nakam taleyi haqqında danışmağı sevirlər. Çoxları onun şeirlərini əzbərdən deyir, şəhər mağazalarında və küçə ticarətində rəflərin üzərində həmişə Lermontovun kitabları satılır"*. Onu da deyim ki, hələ tələbəlik vaxtı çox maraqlı bir foto düşmüşdü əlimə. Dağların yaşıl fonunda sərt bir qaya təsviri. Həmin qayanın adı verilmişdi: Lermontov qayası. Biz Puşkini. Lermontovu sevmişik, Belinskini, Dabralyubovu sevə-sevə oxumuşuq. eləcə də digər rus klassiklərini. Ancaq həmişə özümüzə belə bir doğma münasibəti arzulasaq da çox az görmüşük. Qulu Məhərrəmli də məhz belə bir nadir təsadüf haqqında söz açır. Akademik. tarixçi alim Ruddolf İvanovun *"Azərbaycan gerçəkliyi, Rusiya faktoru və İran motivləri"* kitabının bu şəhərdəki kitabxanada təqdimatı keçirilir. Ruddolf İvanovun Azərbaycana məhəbbəti. Azərbaycan həqiqətlərinin həqiqi vəkili kimi çıxış etməsi müəllifi çox sevindirir.

Hər halda beynəlxalq münasibətlərə birbaşa olmasa da, dolayısı ilə yazıçı münasibətləri də təsir göstərə bilir.

*"Əsədin taxtı, müdaxilə vaxtı"* (07.09.2013) politoloji şərhində müəllif özünün dediyi kimi həm də Suriyanın qara bəxti haqqında danışır. Əvvəlcə diktaturanın mahiyyəti və diktatorların qurduğu rejimlərin təbiəti haqqında danışarkən bu tipli rejimlərin yaşamasının səbəbi kimi insanların milli və fərdi heysiyyətinin öldürülməsini, müqavimət və etiraz anlayışlarının leksikomdan çıxarılmasını göstərir. Zənnimcə, Qulu Məhərrəmli bu fikrində həqiqəti deyir. insanın ruhunun öldüyü yerdə hər hansı bir normal vəziyyətdən danışmağa dəyməz: *"Hər bir diktaturanın arxasında xalqın hədər gedən illəri, boşa çıxan ümidləri, uğursuz taleyi və yaşanan acınacaqlı ömrün sıxılan enerjisi yatır. Əyləncə sevən diktatorların bəzən oğurluq pullar hesabına yaratdıqları iqtisadi yüksəliş, zahiri dəbdəbə və göz qamaşdıran parıltıları nə xalqı mütilik əzabından, nə də diktatoru tarixin ittihamından xilas edir. Buna canlı misal olan Hitler. Stalin. Franko, Mussolini, Pol-Pot və başqaları çoxdan tarixə gömülüb. İndi növbə onların mənəvi varislərinindir: Səddam Hüseyn, Müəmmar Qəzzafi. Hüsnü Mübarək artıq yeni tarixin yağlı şapalağını yeyiblər. İndi növbə tarixə və dünyaya dirəniş göstərən Bəşər Əsədindir"*. Əslinə qalsa. Qulu Məhərrəmli bu qeydləri yazanda hələ ki, Suriya indiki vəziyyətində deyildi və digər adları çəkilən tiranlar da hələ sağ idi. Suriyaya doğru uzanan əllərin müəyyən məqsədləri, niyyətləri həyata keçirmək istədiyini təsəvvür etmək olardı. İndi görünən mənzərə budur ki, Suriya qan içində üzür. Əsas da odur ki, müdaxilələr Suriyaya yaxşı heç nə vəd etmir, Qulu Məhərrəmli bu fikirdədir.

... Baş verən hadisələr əslində tarixin həqiqəti olduğu kimi, həm də həqiqətin tarixidir.

*06.10.2021*